# Təsviri incəsənət

1. **Sxemdəki sual işarəsinə uyğun olan anlayış hansıdır?**




A) Əsas rənglər B) Qarışıq rənglər
C) Soyuq rənglər D) İsti rənglər
E) ikinci dərəcəli rənglər

2. **Firuzəyi rəngi hansı rəng qarışığından almaq olar?**
A) Sarı + mavi B) Qırmızı + yaşıl
C) Göy + yaşıl D) Bənövşəyi + boz
E) sarı + ağ

3. **Bakı şəhərinin ən qədim memarlıq abidəsi:**
A) Hökumət evi
B) Azərbaycan Dövlət Filarmoniyası
C) Qız qalası
D) İsmailiyyə
E) Şirvanşahlar sarayı

4. **Mənzərə — təsviri sənətin:**
A) Növüdür B) Hissəsidir
C) Janrıdır D) Elementidir
E) heç biri

5. **Təsviri sənətin növləri:**
A) Mənzərə, natürmort, portret
B) Qrafika, heykəltəraşlıq, rəngkarlıq
C) Rəngkarlıq, mənzərə, qrafika
D) Heykəltəraşlıq, qrafika, natürmort
E) heç biri

6. **Dekorativ-tətbiqi sənət növləri:**
A) Rəngkarlıq, qrafika
B) Bədii metal, keramika
C) Memarlıq, dizayn
D) Heykəltəraşlıq, xalçaçılıq
E) heç biri

7. **Təsviri sənətdə insanın gündəlik həyatına dair çəkilmiş janr belə adlanır:**
A) Tarixi B) Əsatir C) Məişət
D) Batal E) Qrafika

8. **Freska — ən qədim növdür:**
A) Heykəltəraşlığın B) Qrafikanın
C) Memarlığın D) Rəngkarlığın
E) Mənzərənin

9. **Qrafikanın əsas və ifadəli təsvir vasitələri bunlardır:**
A) Xətt B) Rəng C) Naxış
D) Obraz E) dairə

10. **Mozaika, vitraj, freska — növlərdir:**
A) Rəngkarlığın
B) Dekorativ-tətbiqi sənətin
C) Heykəltəraşlığın
D) Qrafikanın
E) Marinanın

11. **Monumental heykəltəraşlığa aiddir:**
A) Atlı heykəllər B) Abidələr
C) Ansambllar D) Hamısı
E) A,B,C

12. **Süjetli əsərlərə aiddir:**
A) Məişət B) Natürmort C) Mənzərə
D) Portret E) C və D

13. **Qayaüstü təsvirlər belə adlanır:**
A) Petroqlif B) İeroqlif
C) Rəmzi işarə D) Daş təsvirlər
E) mixi yazılar

14. **Natürmort əsərlərindəki əşyalar üzərində işıq-kölgə anlayışında əşyadan səth üzərinə düşən siluet necə adlanır?**
A) İşıq B) Kölgə C) Blik
D) Refleks E) heç biri

15. **Qadın üst geyiminə aiddir:**
A) Arxalıq B) Eşmək C) Çəpkən
D) Hamısı E) Təsək

16. **Kompozisiya nəyə deyilir?**
A) Rəsmin hissələrinin uyğunluğu, əlaqəsi
B) Yazıların səhvsiz yazılması
C) Rəsmlərin səliqəli rənglənməsi
D) Rəsmin ahəngi
E) Rənglərin əlvanlığı

17. **Səth üzərində yarıdan çox qabardılan heykəltəraşlıq növü:**
A) Relyef B) Qorelyef C) Barelyef
D) Büst E) Profil